**AZƏRBAYCAN RESPUBLİKASI BAKI ŞƏHƏRİ
BİNƏQƏDİ RAYON İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**

**SƏRƏNCAMI**

**№** 230 **“**08**”** Sentyabr **2022-ci il**

**“Sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların hüquqlarının qorunması üzrə monitorinq qrupunun yaradılması haqqında” Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 09.06.2022-ci il tarixli 137 saylı Sərəncamında dəyişiklik edilməsi barədə**

Bakı şəhəri Binəqədi rayonunun inzibati ərazisində aşkar edilmiş sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların hüquqlarının və mənafelərinin daha səmərəli qorunması üçün çevik həll mexanizminin yaradılması və aidiyyəti qurumlar arasında koordinasiyanın təmin edilməsi məqsədilə Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 09.06.2022-ci il tarixli 137 saylı Sərəncamı ilə Sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların hüquqlarının qorunması üzrə monitorinq qrupu yaradılmışdır.

Dövlət dəstəyinə ehtiyacı olan Bakı şəhəri Binəqədi rayonunun inzibati ərazisində qeydiyyatda olan, faktiki olaraq yaşayan və sosial təhlükəli vəziyyətdə aşkar edilən yetkinlik yaşına çatmayanların hüquqlarının və mənafelərinin müdafiə olunması, habelə onların sosial xidmət tədbirlərinə cəlb edilməsi məqsədilə Sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların hüquqlarının qorunması üzrə monitorinq qrupunun adının dəyişdirilməsinə zərurət yaranmışdır.

“Sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanlar” ifadəsinin əhatə dairəsi məhdud olduğundan həmin ifadənin daha geniş mənalı, “Çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayanlar” ifadəsi ilə dəyişdirilməsi məqsədəuyğun hesab edilmişdir.

Yuxarıda qeyd olunanları, Azərbaycan Respublikasının 31.05.2002-ci il tarixli 336-IIQ saylı Qanunu ilə təsdiq edilmiş “Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamə”nin 1-ci maddəsini, “Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının

profilaktikası haqqında" 24.05.2005-ci il tarixli 919-IIQ saylı Azərbaycan Respublikası Qanununun 9.0.3-cü maddəsini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31.10.2003-cü il tarixli 145 nömrəli Qərarı ilə təsdiq edilmiş "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın 2.19-cu bəndini, Azərbaycan Respublikasının Ailə Məcəlləsinin 51-ci maddəsini, "Sosial xidmət haqqında" 30.12.2011-ci il tarixli 275-IVQ saylı Azərbaycan Respublikasının Qanununu, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.13.1-ci, 4.6.3-cü, 4.13.1-ci və 6.8-ci bəndlərini rəhbər tutaraq,

**QƏRARA ALIRAM:**

**1.** Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 09.06.2022-ci il tarixli 137 saylı Sərəncamı ilə yaradılmış Bakı şəhəri Binəqədi rayonu üzrə Sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların hüquqlarının qorunması üzrə monitorinq qrupunun adı dəyişdirilərək Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti yanında Çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayanların hüquqlarının qorunması üzrə monitorinq qrupu adlandırılsın.

**2.** Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti başçısının 09.06.2022-ci il tarixli 137 saylı Sərəncamının 1-ci və 2-ci bəndində qeyd edilmiş "Sosial təhlükəli vəziyyətdə olan yetkinlik yaşına çatmayanların hüquqlarının qorunması üzrə monitorinq qrupu" ifadəsi Bakı şəhəri Binəqədi Rayon İcra Hakimiyyəti yanında "Çətin həyat şəraitində olan yetkinlik yaşına çatmayanların hüquqlarının qorunması üzrə monitorinq qrupu" ifadəsi ilə əvəz edilsin.

**3.** Sərəncamın surətinin monitorinq qrupunun üzvlərinə göndərilməsinin təmin edilməsi Aparatın Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR:**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri vəzifəsi səlahiyyətlərini müvəqqəti icra edən, məsləhətçi** **Turan Qarayeva**

Bakı şəhəri Binəqədi rayon İcra ... Respublikası ... SƏNƏDLƏR ÜÇÜN